# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 03 MART 2022-Cİ İL / № 08 (1275)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU




## Prezident İlham Əliyev Rumıniyanın energetika nazirini və Rumıniya Prezidentinin xüsusi nümayəndəsini videoformatda qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı videoformatda qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku Rumıniya Prezidenti Klaus Yohannisin diplomatik əlaqələrimizin qurulmasının 30 illiyi münasibətilə və Prezident İlham Əliyevi Rumıniyaya səfərə dəvətlə bağlı dövlətimizin başçısına ünvanladığı məktubu qeyd etdi.

Dövlətimizin başçısı məktuba görə minnətdarlığını Rumıniya Prezidentinə çatdırmağı xahiş etdi.

**Söhbət zamanı Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı vurğulandı və bu baxımdan strateji tərəfdaşlığa dair imzalanmış birgə Bəyannamənin önəmi qeyd edildi.**

Virgil-Daniel Popeskunun səfərinin ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunuldu, bu əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı və ölkəmizlə Avropa İttifaqının 9 üzv dövləti arasında strateji tərəfdaşlıq haqqında sənədlərin imzalanmasının bunun yaxşı göstəricisi olduğu qeyd edildi.

**Söhbət zamanı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.**

## AHİK-də Xocalı soyqırımı ilə əlaqədar tədbir keçirilib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar onlayn tədbir keçirilib. Tədbirdə AHİK-in rəhbər işçiləri, həmçinin üzv və tabe təşkilatların sədrləri və məsul əməkdaşları iştirak ediblər.**



Əvvəlcə Xocalı faciəsi qurbanlarının, o cümlədən ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**Sonra AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasətindən danışıb.**

BAX SƏHİFƏ: 2

## Ceyhun Bayramov: *"Azərbaycan vəziyyətin gərginləşməsinin qarşısını almaq üçün tərəfləri vaxt itirmədən dialoqa çağırır"*

**Azərbaycan Ukrayna ərazisində baş verənlərdən, xüsusilə mülki şəxslər arasında ciddi itkilərdən dərin təəssüf hissi keçirir. Mülki vətəndaşların həyatı və mülki vətəndaşların yaşayış məntəqələri və insan hüquqları hər zaman qorunmalıdır.**



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Hüquqları Şurasının 49-cu iclasında çıxışı zamanı deyib.

Nazir bildirib ki, Azərbaycan Ukraynaya humanitar yardım olaraq dərman preparatları və tibbi avadanlıqlar göndərib.

**"Bu kritik vaxtda Azərbaycan vəziyyətin gərginləşməsinin qarşısını almaq üçün tərəfləri vaxt itirmədən dialoqa çağırır və tərəflər arasında birbaşa danışıqların zəruriliyini vurğulayır", - deyə C.Bayramov qeyd edib.**






## AHİK-in rəhbərliyi "Ana harayı" abidəsini ziyarət edib

**Azərbaycanda və dünyanın bir sıra ölkələrində fevralın 26-da bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 30-cu ildönümü qeyd olunub.**

**Bununla əlaqədar olaraq fevralın 25-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi hadisə qurbanlarının şərəfinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət ediblər.**

**Abidə önünə güllər düzülüb, faciə qurbanlarının xatirəsi dərin ehtiramla yad olunub.**

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti mayın 1-dək uzadılıb

**Fevralın 24-də Azərbaycan Respublikasinin Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə Qərar qəbul edib.**

Bu barədə Qərarı Baş nazir Əli Əsədov imzalayıb. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 may saat 06:00-dək uzadılıb.

## COVID-19 infeksiyasına son sutkada 865 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 865 yoluxma faktı qeydə alınıb, 2044 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 16 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 787min 367 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 769 min 746 nəfər müalicə olunaraq sağalıb, 9454 nəfər vəfat edib. Aktiv xəstə sayı 8 min 167 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8487, bu günə qədər isə ümumilikdə 6 milyon 572 min 316 test icra olunub.**

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 6

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq

**Xüsusi tədbirlər planı təklif olunub**

BAX SƏHİFƏ: 7



# AHİK-DƏ XOCALI SOYQIRIMI İLƏ ƏLAQƏDAR TƏDBİR KEÇİRİLİB

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar onlayn tədbir keçirilib. Tədbirdə AHİK-in rəhbər işçiləri, həmçinin üzv və tabe təşkilatların sədrləri və məsul əməkdaşları iştirak ediblər.**

Əvvəlcə Xocalı faciəsi qurbanlarının, o cümlədən ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra **AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev** çıxış edərək son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasətindən danışıb.



**Onun sözlərinə görə, ermənilərin millətçi-şovinist siyasətinin əsas məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur: "Azərbaycan toponimlərini dəyişmək, münbit əraziləri ələ keçirmək, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmaq şovinist erməni xislətinin əsas əlamətləridir. Onlar əsasən keçid dövrlərini, siyasi kataklizmləri özləri üçün əlverişli hesab etmiş və müəyyən təxribatlar, ağır cinayətlər törətmişlər".**

AHİK sədri qeyd edib ki, ermənilər sovet hakimiyyəti dövründə - 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlının deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilməsinə məkrli planları ilə nail olmuşlar.

O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edərkən ermənilərin Qarabağa olan iddialarının qarşısını qətiyyətlə alırdı: "Müdrik siyasəti, qabaqlayıcı tədbirləri, Qarabağda gördüyü abadlıq-quruculuq işləri və mədəni tədbirləri ilə ermənilərin qərəzli planlarını alt-üst edirdi. Nə qədər cidd-cəhd etsələr də, öz çirkin istəklərinə nail ola bilmirdilər. Ulu Öndər Moskvada sovet rəhbərliyində təmsil olunan zamanlarda da ermənilərin əsassız iddialarının qarşısında sipər çəkmişdi, onlar səslərini belə çıxara bilmirdilər. Təəssüflər olsun ki, Heydər Əliyev böyük siyasətdən xəyanətkarcasına uzaqlaşdırıldıqdan cəmi 25 gün sonra Qarabağ məsələsi yenidən ortaya atıldı və alovlanmağa başladı".

**"Xocalı faciəsi yalnız xalqımıza qarşı deyil, ümumilikdə insanlıq əleyhinə, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayət idi. Ermənilər tərəfindən məqsədli şəkildə törədilmiş bu qanlı cinayət hadisəsi Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi çox ağır və dəhşətlidir. Faciənin nəticələrindən belə qənaətə gəlmək olur ki, burada ermənilərin əsas məqsədi Xocalını yer üzündən silmək olub. Bu vəhşi əməliyyatda ermənilərlə yanaşı, Xankəndindəki 366-cı alayın 3 batalyonu, habelə xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar da yaxından iştirak etmişdilər. Hadisənin təşkilatçıları və ümumiyyətlə, birbaşa Xocalı soyqırımını törədənlər Robert Koçaryan, Serj Sarkisyan və digərləri olmuşlar. Hansı ki, bu cinayətkarlar, əlləri minlərlə dinc azərbaycanlının qanına bulaşmış qatillər uzun illər Ermənistana rəhbərlik etmişlər", - deyə S.Möhbalıyev bildirib.**

Xocalı faciəsinə ilk siyasi qiymətin Ulu Öndər Heydər Əliyev tərəfindən verildiyini xatırladan Milli Məclisin deputatı bildirib ki, məhz onun 1994-cü ildə imzaladığı fərmanla 26 Fevral - Xocalı Soyqırımı və Milli Matəm Günü elan olunmuşdur.

"2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası uğurla davam etdirilir. Kampaniya Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada təbliğ olunmasında, bu qanlı faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınmasında əhəmiyyətli rol oynayır, artıq bir sıra ölkələrdə bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilir", - S.Möhbalıyev deyb.

**Bu vaxtadək Xocalı soyqırımı ilə bağlı Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələrinin qəbul edildiyini qeyd edən Konfederasiya sədri faciənin ABŞ-ın 30-dan çox ştatının parlamentləri və qubernator proklamasiyaları səviyyəsində tanındığını əlavə edib: "Bütün bunlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin daxili və xarici siyasətinin, habelə Heydər Əliyev Fondunun dünyada apardığı təbliğatın, haqqa-ədalətə çağırışın nəticəsidir".**

"Azərbaycan həmkarlar ittifaqları da Xocalı soyqırımı ilə bağlı keçirilən kampaniyalarda, tədbirlərdə yaxından iştirak edir, öz dəstəyini göstərir. Həmçinin müxtəlif vaxtlarda Xocalıdan olan məcburi köçkünlərə maliyyə dəstəyi də göstərmişik", - AHİK sədri vurğulayıb.

**"Bütün şəhidlərimizin, o cümlədən Xocalı şəhidlərinin qanı yerdə qalmadı. Çünki uğrunda can verdikləri Vətən torpağı bu gün azaddır. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 30 il Ermənistanın işğalı altında olan torpaqlarımızı cəmi 44 gündə azad etdi. Babalarımızdan bizə miras qalan "Güc birlikdədir", "Birlik olmayan yerdə dirilik də olmaz" kəlamlarını əsas tutaraq Ali Baş Komandanın ətrafında dəmir yumruğa dönən xalqımız qələbəmizin əsas təminatçısı oldu. İnanırıq ki, Vətən müharibəsində xalqımızın nümayiş etdirdiyi möhkəm birlik əbədi olacaq, bizi növbəti, daha böyük qələbələrə sövq edəcək", - S.Möhbalıyev fikrini belə tamamlayıb.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Ukrayna hərbi müdaxilə, Rusiya iqtisadi təzyiqlər altında

**Rusiya-Ukrayna silahlı qarşıdurması Avropa qitəsində II Dünya müharibəsindən sonra həm miqyasına, həm qurbanlarının sayına, həm də istifadə olunan hərbi texnikanın imkanlarına görə ən qanlı olaydır. Hər gün milyardlar xərcləmək hesabına aparılan müharibə təkcə qoca qitə, region ölkələri üçün deyil, bütövlükdə planetimiz üçün faciələr vəd edir. Döyüş meydanlarından Rusiya və Ukrayna informasiya vasitələrinin ötürdüyü məlumatlar üst-üstə düşməsə də, görünən odur ki, şəhərlər, qəsəbələr, kəndlər dağılır, günahsız insanlar öldürülür, gənc əsgərlər həyatlarını itirir. Yüz minlərlə sakin doğma ev-eşiklərindən qaçaraq şəraiti olmayan ərazilərə sığınır.**










Paradoks ondadır ki, hər iki dövlətin rəhbərliyi öz məntiqi ilə çıxış edir, müharibənin başlanmasına səbəb kimi bir-birini tənqid edir. Rusiya iddia edir ki, Donbas və Luqansk əhalisini Ukraynanın bu vilayətlərdə həyata keçirdiyi soyqırımından qorumaq naminə hücum taktikasını seçdi. Ukrayna isə torpaqlarını işğaldan azad etmək uğrunda mübarizə apardığını bildirir. Rusiyanı "şər" imperiyası adlandırır. Putinin bu ölkəni ilhaq etmək, hansısa formada keçmiş SSRİ-ni bərpa etmək planını reallaşdırmaq istəyində olduğunu dünyaya elan edir.

**Qərb hələlik Ukraynaya inanır və onun müdafiəsi iddiası ətrafında birləşir. Rusiyaya qarşı bir-birindən ağır iqtisadi, maliyyə və siyasi sanksiyalar paketi tətbiq edir. Təbii ki, bu sanksiyaların nə qədər səmərəli olacağı və ya müharibənin dayandırılmasına nə qədər təsir göstərəcəyi hələlik dəqiq məlum deyil. Çünki Rusiya kifayət qədər təbii və insan resurslarına malikdir. Hərbi qüdrəti, xüsusilə son onilliklərdə, çox-çox artıb. Az da olsa müttəfiqləri var. O başqa məsələdir ki, bu müttəfiqlərin ən azı bitərəfliyinin müddəti hadisələrin yaxın günlərə qədər inkişafından sonra bilinəcək.**

Hər iki tərəf çətin durumdadır. Artıq hər hansının geri çəkilmək şansı yoxdur. Bu şanssızlıqdan Qərb dünyası məharətlə faydalanır.

Türkiyə və Azərbaycan istisna olmaqla, qonşu dövlətlər, necə deyərlər, xoşbəxtliklərini Rusiya və Ukrayna xalqlarının faciəsi üzərində qurmağa çalışırlar.

**Türkiyə və Azərbaycanın istər Rusiya, istərsə də Ukrayna ilə uzun illərə söykənən yaxşı qonşuluq əlaqələri mövcuddur. Qarşılıqlı iqtisadi maraqları var. Əlbəttə, Azərbaycan, qardaş dövlət regionda sülh, əmin-amanlıq şəraitində yaşamağa önəm verirlər. Buna görə də Türkiyə də, Azərbaycan da qarşıduran tərəfləri dəfələrlə sülhə çağırıb, vasitəçilik təşəbbüslərini irəli sürüblər. Bu gün də bu təşəbbüslə çıxış edir, barışıq üçün yeni vasitələr axtarırlar.**

Azərbaycan Ukraynada yaşayan, müxtəlif məqsədlərlə bu ölkədə səfərdə olan vətəndaşlarının qayğısına qalır, onların vətənə qayıdışını təmin edir.

**Yəqin ki, hər iki dövlət özündə müdriklik tapacaq, yaxın günlərdə hərbə "yox" deyəcək.**

# Azərbaycan Ukraynaya humanitar tibbi yardım göndərib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən Ukraynaya humanitar yardım məqsədilə təcili və təxirəsalınmaz hallarda tibbi yardımın göstərilməsi üçün dərman preparatları və tibbi avadanlıqlar göndərilib.**



TƏBİB-dən bildirilib ki, tibbi vasitələrin yükləndiyi təyyarə fevralın 27-də yola düşüb.

**Tibbi vasitələrin yardımı ilə bağlı təhvil-təslim aktını Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski və TƏBİB-in İdarə Heyəti sədri vəzifəsini icra edən Vüqar Qurbanov imzalayıblar.**




**Xatırladım ki, ermənilər zaman-zaman Naxçıvanı ilhaq etmək üçün fürsət axtarıblar. Sovet hakimiyyəti illərində onlar daha çox fəallıq göstərib bu çirkin niyyətlərini həyata keçirmək istəyirdilər.**

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik etdikdən sonra Naxçıvanın başının üstünü almış təhlükə aradan qaldırıldı.

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan artıq 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi. O cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılır, sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.

# *“Əminik ki, Naxçıvan bundan sonra da uğurlarının miqyasını daha da artıracaq və əldə etdiyi nailiyyətlərlə dünyaya səs salacaq”*




**Fevralın 24-də Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin 30 illiyi münasibətilə yubiley tədbiri keçirilib.**

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin kollektivi əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül-çiçək dəstələri qoyub, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildirib.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın məzarı da ziyarət edilib, məzarüstü abidəsi önünə gül-çiçək dəstələri qoyulub, əziz xatirəsi anılıb.

Sonra Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyinin təsis olunmasının 30-cu ildönümünə həsr olunmuş yubiley tədbiri keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının, Xocalı faciəsi qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib, dahi Liderə və bütün şəhidlərimizə dərin hörmət və ehtiramlarını bildiriblər.

**Daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov giriş nitqi ilə tədbiri açaraq rəhbərlik etdiyi daimi nümayəndəliyin yaranma tarixi, keçdiyi çətin və mürəkkəb yol, fəaliyyət istiqamətləri barədə geniş, ətraflı məlumat verib.**

***Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik, Milli Məclisin deputatı İsa Həbibbəyli*** Naxçıvanın muxtariyyətindən əvvəl və sonra onun Türkiyə və İrandakı nümayəndəliklərinin, eləcə də 1992-ci ildə Bakıda fəaliyyətə başlamış, bu gün 30 illiyinə toplaşdığımız bu daimi nümayəndəliyin mühüm əhəmiyyətindən və ölkəmizin ikinci dəfə müstəqillik əldə etməsindən sonra görkəmli dövlət xadimi Heydər Əliyevin bu institutun möhkəmləndirilməsindəki xüsusi xidmətlərindən danışıb.

***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Milli Məclisin deputatları Eldar İbrahimov, Siyavuş Novruzov, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov*** çıxışlarında Naxçıvanın 90-cı illərdə üzləşdiyi ağır durum barədə danışmışlar. Diqqətə çatdırmışlar ki, həmin ağır günlərdə məhz H.Əliyev fenomeni Naxçıvanı başının üstünü almış təhlükələrdən xilas edə bilərdi və etdi də.

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyinin kollektivini öz adından, həmçinin Azərbaycan həmkarlar ittifaqlarının üzvləri adından yubiley münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, Daimi Nümayəndəliyin fəaliyyətini yüksək qiymətləndirib.**

Deyib ki, Naxçıvan dünyanın ilk insan məskənlərindən və dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Xalqımızın zəngin tarixinin, dövlətçilik irsimizin formalaşmasında elmi və mədəni irsimizin yaranmasında əvəzedilməz rol oynamışdır.

Təəssüf hissi ilə qeyd etdi ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra tarixi torpağımız olan Zəngəzur Ermənistana verildi. Bununla da Naxçıvan Azərbaycandan ayrı düşdü. Amma buna baxmayaraq, Naxçıvan, Vətənimiz Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi, bütün sınaqlardan üzüağ çıxdı, bütün kənar təzyiqlər qarşısında rəşadətlə duruş gətirdi.

**S.Möhbalıyev xatırlatdı ki, XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistanın hakimiyyət dairələri yenidən Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını irəli sürdülər. Bu iddialarını müharibə yolu ilə gerçəkləşdirməyə çalışdılar. Naxçıvan çətin sınaqlar qarşısında qalmışdı. Muxtar respublikanın nəqliyyat-kommunikasiya xətləri ermənilər tərəfindən kəsiləndən, tam iqtisadi blokadaya alınandan sonra burada iqtisadi böhran yaşanmağa başladı.**

Yalnız xalqımızın böyük oğlu Heydər Əliyevin 1990-cı ilin yayında Moskvadan Bakıya, oradan da Naxçıvana qayıdışı bu qədim Azərbaycan torpağının xilasının başlanğıcı oldu. Ulu Öndərin qətiyyəti və zəngin dövlətçilik təcrübəsi sayəsində erməni qəsbkarlarının Naxçıvanı işğal etmək planları puç oldu, muxtar respublika tarixin ən sərt sınaqlarından üzüağ, alnıaçıq çıxdı.

Yeri gəlmişkən, nəzərinizə çatdırım ki, 1992-ci ildə çətin şəraitdə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması da Azərbaycanın gələcək taleyində xüsusi yeri olan ümumrespublika səviyyəli siyasi hadisə idi.

**Qürurla deyə bilərik ki, 1993-cü ildə xalqımızın təkidli istəyi ilə siyasi hakimiyyətə gələn Ulu Öndərin Naxçıvandan başlatdığı xilaskarlıq missiyası Azərbaycanın dövlət müstəqilliyini əbədi etdi.**

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Naxçıvan Muxtar Respublikası davamlı inkişaf və əmin-amanlıq yolu ilə inamla addımladı. Muxtar respublikanın inkişafının 2003-cü ildən sonrakı dövrü isə Ulu Öndər Heydər Əliyevin quruculuq xəttini yaradıcı şəkildə, müasir dövrün tələblərinə uyğun davam etdirən Respublika Prezidenti İlham Əliyevin adı ilə bağlıdır.

Bir vacib məqama da diqqət çəkmək istərdim. Belə ki, əvvəllər enerji qıtlığından əziyyət çəkən, enerjini idxal hesabına əldə edən Naxçıvan indi enerji ixracatçısına çevrilib. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2021-ci ildə bu stansiyaların sayı 11-ə çatıb.

**AHİK sədri sonra dedi, əldə olunan iqtisadi nailiyyətlər əhalinin məşğulluğunu təmin edib, 98 775 iş yeri açılıb, əhalinin gəlirləri isə 61 dəfə artıb.**

Dövlət başçısı kimi bölgəyə 15 dəfə səfər edən Prezident İlham Əliyev Naxçıvanda 100-dən artıq təhsil, səhiyyə, idman və mədəniyyət müəssisəsinin, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışını edib. Ölkə rəhbərinin himayəsi, tapşırığı, tövsiyəsi ilə ərsəyə gələn obyektlərin sayı isə minlərlədir.

**Qeyd edim ki, İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni siyasi və iqtisadi reallıqlar yaradıb. Müharibəyə qədər bölgənin aparıcı dövləti olan Azərbaycan ərazi bütövlüyünü təmin etdikdən sonra regiondakı lider statusunu daha da möhkəmləndirib. Eyni zamanda Ermənistanın hərbi-siyasi məğlubiyyətə düçar edilməsi ilə Prezident İlham Əliyev xalqımızın tarixi-milli maraqlarının reallaşmasına da zəmin formalaşdırıb. Bunlardan biri də Azərbaycan torpaqları olmuş Zəngəzur bölgəsinin bütün türk dünyasını birləşdirən körpüyə çevrilməsi üçün yetişmiş tarixi şəraitin reallaşdırılmasıdır.**

Prezident İlham Əliyevin siyasi-diplomatik müdrikliyi nəticəsində Zəngəzur dəhlizi adını alan nəqliyyat körpüsünün yaradılmasına, heç şübhəsiz, az qalıb.

**Səttar müəllim çıxışını aşağıdakı sözlərlə yekunlaşdırdı: “Bu gün blokada şəraitində yaşayan muxtar respublikada əldə olunmuş inkişaf Prezident İlham Əliyevin siyasi kursunun təcəssümü, Heydər Əliyev ideyalarının təntənəsidir. Əminik ki, Naxçıvan bundan sonra da uğurlarının miqyasını daha da artıracaq və əldə etdiyi nailiyyətlərlə dünyaya səs salacaq”.**

# *“Sabahın alimləri” XI respublika müsabiqəsi yekunlaşıb*

**Müsabiqənin onlayn bağlanış mərasimində iştirak edən təhsil naziri Emin Əmrullayev təhsil sistemində mövcud müasir metodlardan danışıb. Şagirdlər arasında elmi axtarışlara marağı olan “gənc alimlər”in gələcəkdə də işlərini müvəffəqiyyətlə davam etdirmələrini tövsiyə edən Emin Əmrullayev qalib şagirdləri təbrik edib və onlara uğurlar arzulayıb. Nazir həmçinin layihələrin işlənməsində şagirdlərə dəstək olan alimlərə və layihələrin qiymətləndirilməsində iştirak edən münsiflər heyətinə təşəkkür edib.**

Tədbirdə **Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov,** gənclər və idman nazirinin müavini İndira Hacıyeva da təbrik nitqi ilə çıxış ediblər.

**Bildirilib ki, cari ildə IX-XI siniflərdə təhsil alan 326 şagird 192 elmi layihə ilə, Elmi Ekspertiza Komissiyasının qərarına əsasən, müsabiqədə iştirak etmək hüququ qazanıb. Bu layihələrdən 58-i fərdi, 134-ü isə kollektiv işlənilmiş layihələr olub. Müsabiqəyə buraxılan layihələrlə Bakı şəhəri üzrə 48 faiz, Sumqayıt şəhəri üzrə 27 faiz, Şirvan şəhəri üzrə 7 faiz, həmçinin Naxçıvan Muxtar Respublikası və 14 rayon ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri iştirak ediblər.**




Şagirdlər müsabiqəyə riyaziyyat üzrə 21, fizika, astronomiya üzrə 22, kimya üzrə 21, biologiya üzrə 22, tibb və sağlamlıq üzrə 26, ekologiya, ətraf mühitin idarəolunması üzrə 31, kompüter elmləri üzrə 15, mühəndislik üzrə 34 layihə ilə qatılıblar.

**Layihələrin qiymətləndirilməsini həyata keçirmək məqsədilə alimlərdən ibarət münsiflər heyəti təşkil edilib. Münsiflər heyətinin qərarına əsasən, müxtəlif kateqoriyalara aid I, II və III yerlərə 48 layihə üzrə 84 şagird, o cümlədən I yerə 7 layihə üzrə 12 şagird, II yerə 16 layihə üzrə 30 şagird, III yerə 25 layihə üzrə 42 şagird layiq görülüb.**

Qaliblər sırasından ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisində respublikamızı təmsil etmək üçün isə 7 layihə (12 şagird) seçilib. Cari ildə ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinin mayın 8-13-də ABŞ-ın Corciya ştatının Atlanta şəhərində keçirilməsi nəzərdə tutulub.

“Sabahın alimləri” XI respublika müsabiqəsinin iştirakçılarına hər il olduğu kimi, bu il də ABŞ-ın müxtəlif beynəlxalq fondlar, assosiasiyalar və cəmiyyətlərinin xüsusi mükafatları verilib. Bu mükafatlar seçilmiş istiqamətlər üzrə 10 layihəyə (12 şagirdə) təqdim olunub.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal və hədiyyələr təqdim ediləcək, yer tutmayan finalçılara isə müsabiqənin sertifikatları veriləcək.

**Qeyd edək ki, Təhsil Nazirliyinin əsas təşkilatçılığı ilə 2012-ci ildən etibarən keçirilən müsabiqəyə ölkə miqyasında maraq ildən-ilə artır. Müsabiqə Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə keçirilir.**

# Rəyasət Heyətinin növbəti iclası keçirilib

**Fevralın 25-də AMEA-nın Azad Həmkarlar İttifaqı (AHİ) Rəyasət Heyətinin növbəti iclası keçirilib.**



Tədbiri giriş sözü ilə **AHİ-nin sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanov** açaraq iclasın gündəliyi barədə iştirakçılara məlumat verib.

Professor Habil Qurbanov bu il fevralın 26-sı bəşəriyyət tarixinin ən qanlı səhifələrindən olan Xocalı soyqırımından 30 il ötdüyünü bildirib, ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, xalqımızın tarixinə qanla yazılan Xocalı faciəsinin dəhşətli nəticələri barədə ətraflı məlumat verib. O, Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar AMEA-nın elmi müəssisə və təşkilatlarında silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Daha sonra Xocalı faciəsində, həmçinin ölkəmizin ərazi bütövlüyünün qorunması, torpaqlarımızın azad olunması uğrunda həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**İclasda AHİ sədri yanvarın 28-də Prezident İlham Əliyevin “Xocalı soyqırımının otuzuncu ildönümü haqqında” Sərəncam imzaladığı və Sərəncama uyğun olaraq tədbirlər planının hazırlandığını bildirib. Qeyd edib ki, Sərəncamda Xocalı soyqırımına hüquqi qiymətin verilməsi və bu dəhşətli faciəni törədənlərin öz layiqli cəzalarını alacaqları da əksini tapıb.**

Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xüsusi vurğulayan Habil Qurbanov dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımının beynəlxalq müstəvidə tanınmasının Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildiyini bildirib.

**Habil Qurbanov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən “Xocalıya ədalət!” kampaniyasının Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən tanınmasında son dərəcə mühüm rol oynadığını, Ermənistan tərəfinin yuxarıda qeyd edilən çoxillik dezinformasiya və təhrif fəaliyyətinə sarsıdıcı zərbə endirdiyini söyləyib.**

O, bu yaxınlarda Xocavəndin Edilli kəndində kütləvi məzarlığın aşkarlandığını və bu məzarlıqda ermənilər tərəfindən 15-20 azərbaycanlının basdırıldığının ehtimal olunduğunu da diqqətə çatdırıb.

**Tədbirdə digər çıxışlar da dinlənilib.**

# Qurultayda Xocalı soyqırımı da, 44 günün Zəfəri də xatırlandı




**Fevralın 26-27-də Türkiyənin paytaxtı Ankara şəhərində "Türk Eğitim-Sen"in 7-ci qurultayı keçirilib. Tədbirdə Türkiyənin təhsil nazirliyinin, siyasi partiyalarının, qeyri-hökumət təşkilatlarının, həmkarlar ittifaqı təşkilatlarının nümayəndələri ilə yanaşı, Qazaxıstan Təhsil və Elm İşçiləri Həmkarlar İttifaqının sədri Aygül Mukaşeva, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, Şimali Makedoniya Türk Hərəkat Partiyasının sədri Enes İbrahim, Kosovo Türk Müəllimlər Dərnəyinin başçısı Erol Kala, İraq Türkmən Təhsil Təşkilatı başçısı Əli Hüseyn Gülboy və başqaları iştirak ediblər.**

Qurultayda Xocalı soyqırımı qurbanlarının xatirəsi Azərbaycan bayrağı dalğalandırılaraq bir dəqiqəlik sükutla yad olunub.



Açılış nitqi ilə çıxış edən "Türk Eğitim-Sen"in sədri Talip Geylan qürur hissi ilə bildirib ki, bu gün təmsil etdiyi təşkilatın üzvlərinin sayı 250 min nəfərə çatır. Yarım milyondan artıq ittifaq üzvünü özündə birləşdirən "Türkiyə Kamu-Sen"ə daxil olan 11 sahə həmkarlar ittifaqı içərisində ən böyüyüdür. Bu uğurun sahibi, şübhəsiz ki, həmkarlar ittifaqı birliyimizə sadiq olan sıravi üzvlərimiz və təşkilatımızın rəhbərləridir. "Türk Eğitim-Sen" olaraq inandığımız dəyərlərə və ideallarımıza uyğun olaraq coğrafiyamıza biganə qalmırıq. Beynəlxalq Avrasiya Təhsil İşçiləri Həmkarlar İttifaqı Birliyi adı altında Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Kosovo, Makedoniya, Rumıniya, KKTC və İraqdakı təhsil həmkarlar ittifaqları ilə birgə fəaliyyət həyata keçiririk. Hər il ölkələrimizdən birində Nümayəndələr Şurasının üzvlərini toplayır, elmi konfrans və seminarlar keçirir, beləliklə, Türk Dünyasının ortaq təhsil məqsədlərinə xidmət edirik. Böyük şərəflə bildirirəm ki, Beynəlxalq Avrasiya Təhsil İşçiləri Həmkarlar İttifaqı Birliyi Türk Dünyası idealının təcəssümüdür.

**T.Geylan bildirib ki, bu gün fevralın 26-sı Xocalı soyqırımının 30-cu ildönümüdür. Erməni silahlı birləşmələri 30 il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində vəhşicəsinə qətliam törətmişdir. Onlar 63-ü uşaq, 106-sı qadın və 70-dən çoxu qoca olmaqla, ümumilikdə 613 soydaşımızı qətlə yetiriblər. Bu, soyqırımıdır. Bir daha beynəlxalq təşkilatlara səslənir və bu qətliamın soyqırımı kimi tanınmasını tələb edirik.**

Həmçinin Qarabağın otuz ildən sonra işğaldan azad edilməsindən sevinc və qürur duyduğumuzu bildirir, hünər və qəhrəmanlıq göstərmiş Azərbaycan Silahlı Qüvvələrini, başda Prezident İlham Əliyev olmaqla, təbrik edirik.

**Tədbirdə ATİAHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə də çıxış edib. Qurultay iştirakçılarını Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin adından salamlayan M.Cəfərzadə qeyd edib ki, ötən illər ərzində "Türk Eğitim-Sen" və ATİAHİ ikitərəfli əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmişdir. Sədr müavini həmçinin Azərbaycan və Türkiyə dövlətləri arasındakı qardaşlıq əlaqələrindən də danışıb. O, ölkəmizin 44 günlük Vətən savaşını xatırladaraq bildirib ki, işğal olunmuş Azərbaycan torpaqlarının 2020-ci ildə əks-hücum əməliyyatı ilə erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun Prezidentinin ölkəmizə göstərdiyi mənəvi və diplomatik dəstək təmənnasız qardaşlığın təntənəsi idi: "Vətən müharibəsi dövründə Türkiyənin dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdi. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bu haqq davasında, Türkiyə başda olmaqla, bizə köməklik göstərən bütün türkdilli ölkələrə təşəkkürümüzü bildiririk.**

İki qardaş ölkə arasında imzalanan Şuşa Bəyannaməsi tarixi hadisədir. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə - siyasi, iqtisadi, ideoloji, humanitar və digər sahələrdə davamlı inkişafını təmin edir. Eyni zamanda Bəyannamə müttəfiqliyin geostrateji əhəmiyyətini artırır. Respublikalarımızın üzləşdiyi bir çox problemlər var ki, biz bu məsələlərdə bir olmalıyıq".

**Qeyd edək ki, qurultayda Talip Geylan növbəti dəfə "Türk Eğitim-Sen"in sədri seçilib.**

# Qisas qiyamətə qalmadı



**Milli Elmlər Akademiyasının (MEA) Riyaziyyat və Mexanika İnstitutunda Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirildi.**

Tədbiri giriş sözü ilə açan institutun baş direktoru, akademiyanın müxbir üzvü, professor Misir Mərdanov ermənilər tərəfindən işğal olunmuş torpaqlarımızın geri qaytarılması, Xocalı soyqırımı günahkarlarının beynəlxalq hüquq normaları çərçivəsində cəzalandırılması istiqamətində aparılan məqsədyönlü işlərdən danışdı. Dedi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer tutub. Baş direktor 44 günlük Vətən müharibəsindəki Zəfərimizi Xocalı qurbanının qisası adlandırdı.

**Tədbirdə "Cəsur döyüşçü" adını qazanmış Cəbrayıl, Xocavənd, Füzuli rayonlarının azad olunmağına görə medallarla təltif olunmuş mayor Murad Şirinov və Tərtər, Ağdərə, Suqovuşan uğrunda döyüşmüş Rüstəm Əhmədli də çıxış etdilər. Ordumuzun hazırlığından, döyüşçülərimizin peşəkarlığından qürurla danışdılar. Dedilər ki, Azərbaycan əsgərinin ən qüdrətli silahı Vətən sevgisidir. Bu silahın qarşısında ən müasir silahlar belə dayana bilməz.**

# Beynəlxalq təşkilatın Bakı müşavirəsi

**Fevral ayının 21-24-də Bakı şəhərində Dəmiryolçuların Həmkarlar İttifaqları Beynəlxalq Konfederasiyası "İslahatlar şəraitində həmkarlar ittifaqlarının kollektiv sazişin bağlanması, strukturu və maliyyə siyasətinin dəyişməsi" mövzusunda müşavirə keçirib.**

Müşavirənin işinə MDB və Baltikyanı ölkələrin 7 həmkarlar ittifaqının (Azərbaycan, Rusiya Federasiyası, Belarus, Ukrayna, Qazaxıstan, Çexiya) 30 nümayəndəsi əyani, 6 həmkarlar ittifaqının (Özbəkistan, Tacikistan, Moldova, Gürcüstan, Qırğızıstan, Litva) 15 nümayəndəsi isə onlayn formatda qatılıb.



Tədbirdə Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı (ADMHİ) Respublika Komitəsinin sədri Fəzail Bağırov, aparat işçiləri, birləşmiş və azad həmkarlar ittifaqı komitələrinin sədrləri iştirak ediblər.

**Müşavirəyə moderatorluq edən Beynəlxalq Konfederasiyanın Baş katibi Gennadi Kosolapov mövzu ilə bağlı üzv dövlətlərdə mövcud olan vəziyyət barədə danışıb. Deyib ki, kollektiv müqavilələr sahəsində bütün üzv dövlətlərin həmkarlar ittifaqı təşkilatları islahatlar aparır. Təbii ki, bu islahatlar hər yerdə eyni səviyyədə getmir. Daha səmərəli nəticələr verən islahatlara nail olan ölkələrin təcrübəsi öyrənilməli, yerli xüsusiyyətlərə uyğunlaşdırılıb tətbiq edilməlidir. O, yaxşı təcrübələrdən biri kimi pandemiya dövründə kollektiv müqavilələrə işçilərə müvəqqəti işsizliyi müddətində müəssisə tərəfindən maddi dəstək göstərilməsinə dair maddələrin əlavə olunmasını misal çəkdi.**

G.Kosolapov bir neçə təşkilatın, o cümlədən Azərbaycan dəmiryolçularının müstəqil həmkarlar ittifaqının kollektiv müqaviləyə xüsusi məsuliyyətlə yanaşmasını yüksək qiymətləndirdi. Dedi ki, Azərbaycan dəmiryolçularının həmkarlar ittifaqı kollektiv sazişlə yanaşı ilk təşkilatlarda da belə müqavilələrin bağlanmasını vacib sayır və bunu tam həyata keçirir.

Baş katib MDB, Avropa həmkarlar hərəkatında olan problemlərə və onların həlli yollarına da toxundu.

ADMHİ Respublika Komitəsinin sədri Fəzail Bağırov çıxışında son illər "Azərbaycan Dəmir Yolları" QSC-də aparılan islahatlardan, yeni layihələrin həyata keçirilməsi istiqamətində görülən işlərdən, eyni zamanda islahatlar şəraitində dəmiryolçuların hüquqlarının qorunması və sosial-iqtisadi məsələlərinin həlli üzrə Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin fəaliyyəti barədə məlumat verdi.

Sonra gündəlikdə duran bütün məsələlər üzrə təcrübə mübadiləsi aparıldı, həmkarlar ittifaqlarının gələcək fəaliyyəti müzakirə edildi.

**Tədbirin mədəni proqramı çərçivəsində müşavirə iştirakçıları Bakı Dəmir Yolu Vağzalı, Dəmir Yolu Muzeyi ilə tanış oldular. Onlar üçün Bakı şəhərinin tarixi abidə və digər mədəniyyət obyektlərinə ekskursiyalar təşkil edildi.**

# Yürüşdə Federasiyanın əməkdaşları da iştirak etdilər




**"Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasında Xocalı soyqırımının 30-cu ildönümü qeyd olunub. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Federasiyanın vitse-prezidenti Cəmaləddin İsmayılov qanlı faciənin tarixini yada salıb. Deyib ki, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri 366-cı motoatıcı alayın əsgərləri ilə birlikdə tarixi Azərbaycan şəhəri olan Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdi. Rəsmi məlumata görə, Xocalı soyqırımı zamanı 613 dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirildi.**

Xocalı faciəsi ilk dəfə 1997-ci il fevral ayının 25-də Ümummilli Lider Heydər Əliyevin təklifi ilə Milli Məclisin gündəliyinə çıxarılmış, ona hüquqi-siyasi qiymət verilmişdir, müvafiq qərar qəbul olunmuşdur. Bu qərara əsasən, hər il fevralın 26-da saat 17:00 da Xocalı soyqırımında həlak olanların əziz xatirəsi ölkə üzrə bir dəqiqəlik sükutla yad edilir.

2008 - ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası başlanmışdır. Bu kampaniyanın nəticəsidir ki, hazırda İslam Əməkdaşlıq Təşkilatı, Əfqanıstan, İndoneziya, Bosniya və Herseqovina, Honduras, Panama, Peru, Sudan, Cibuti Qvatemala, Paraqvay, Sloveniya, Çex Respublikası, Kolumbiya, Meksika kimi dövlətlər, ABŞ-ın 20 - dən artıq ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini soyqırımı kimi qəbul edir və pisləyir.

**Bu il fevral ayının 26 -da Xocalı soyqırımında həlak olanların xatirəsini yad etmək məqsədilə "Ana harayı" abidəsinə "Xocalıya ədalət!" devizi altında yürüş keçirildi. Federasiyanın fəalları da bu yürüşdə iştirak etdilər.**

# VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI İLƏ GÖRÜŞ



**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsi və onun ilk təşkilatları Vətən müharibəsi iştirakçıları olmuş təhsil işçiləri ilə mütəmadi görüşlər keçirir. Belə görüşlərdən biri Xocalı soyqırımı ərəfəsində Vətən müharibəsi iştirakçısı, igidliyinə görə iki medala layiq görülmüş E.Həsənov adına Mücühətəran kənd tam orta məktəbin direktoru Namiq Ağaməmmədovla oldu. O, cəbhə günlərini xatırlayaraq Ordumuzun göstərdiyi qəhrəmanlıqlardan epizodlar danışdı.**

Sonra şagird və müəllimlər birgə hazırladıqları "Ruhumuzun Şuşası", "21 Fevral - Beynəlxalq Ana Dili Günü" və "26 Fevral - Xocalı Soyqırımı tariximizin qan yaddaşıdır" adlı bədii kompozisiyaları qonaqlar qarşısında nümayiş etdirdilər. Ətraf kənd məktəblərindən dəvət olunmuş həmkarlar ittifaqı komitələrinin sədrləri, fəalları və digər qonaqlar bədii kompozisiyaları maraqla qarşıladılar. Məktəblilərin xüsusi zövqlə işlənilmiş əl işləri sərgisi də seyirçilərin diqqətini çəkdi.

Sonda Rayon Komitəsinin sədri Hafiz Kərimov məktəbin direktoru Namiq Ağaməmmədovu, bir qrup qabaqcıl müəllimi və şagirdi qiymətli hədiyyə və diplomlarla mükafatlandırdı.

# Azərbaycanın beynəlxalq proseslərə təsir etmək imkanları daha da artacaq


Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə

**Regionda sülhün qorunmasında və təhlükəsizliyin təmin olunmasında maraqlı olan Azərbaycan Türkiyə ilə bağlanan Şuşa Bəyannaməsindən sonra digər qonşu ölkə olan Rusiya ilə fevralın 22-də müttəfiqlik haqqında Bəyannamə imzaladı. Bəyannamədə milli maraqlara, bərabərhüquqlu əməkdaşlığa, BMT-nin mərkəzi rolunu qəbul etməklə, beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, xüsusən iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına, qarşılıqlı hörmət prinsiplərinə riayət edilməsi göstərilir. Dövlət əhəmiyyətli məsələləri özündə ehtiva etsə də, ancaq bu sənəddə bəzi aydınlıq gətirilməsi lazım olan məqamlar da var.**

**Ümumiyyətlə, Azərbaycanı bu sənədi imzalamağa nə təhrik etdi, belə bir addımı atmaq nə üçün lazım idi? Məlumdur ki, hazirda Rusiya ilə Ukrayna arasında müharibə gedir və Qərb ölkələri, Amerika, demək olar ki, Rusiyanı bloklayıb. Rusiyanın hazırkı durumunda bu sənədin imzalanması bizə nə kimi təsir edə bilər?**

Məsələ ilə bağlı millət vəkili **Arzu Nağıyev**, "Qafqaz: əməkdaşlıq və inteqrasiya" klubunun sədri **Anar Əliyev** və politoloq **Yalçın Hacızadənin** fikirlərini öyrəndik.

**Arzu müəllim** bildirdi ki, son hadisələr istər qonşuluq siyasətində, istərsə də xarici siyasətdə mütləq şəkildə öz ərazi bütövlüyünə təhdidin qarşısının alınması məqsədilə müvafiq bəyannamələrin imzalanmasının məqbul hal olduğunu göstərdi. Bu, qarşılıqlı olaraq hər iki dövlətin ərazi bütövlüyünün və suverenliyinin tanınmasını təsdiq edən bir sənəddir.

Digər bir sualınıza gəldikdə isə, Ukrayna ilə Rusiya arasında gedən müharibə dolayı yollarla Azərbaycan üçün təsirləri ola bilər: "Lakin bu, o demək deyil ki, biz bu sənədi Rusiya ilə imzalamışıqsa, digər dövlətlər bizə qarşı da hər hansı bir təhdid variantına keçsinlər. Həmin sənədi biz NATO-nun üzvü olan Türkiyə ilə də imzalamışıq. Hər bir dövlətin öz xarici siyasəti var. Rusiya bizim qonşu və tərəfdaş dövlətimizdir, bizim iqtisadi, siyasi, hərbi, mədəni, humanitar qarşılıqlı münasibətimiz var. Onu da qeyd edim ki, bizim Rusiya ilə bu sənədi imzalamağımız Rusiyaya arxalanan Ermənistana və onların havadarlarına heç də xoş olmayan bir addımdır. Çünki Rusiya və Ermənistan təkcə hərbi cəhətdən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında deyil, eyni zamanda həm MDB məkanında, həm də Avrasiya İqtisadi Birliyində, necə deyərlər, bir yerdədirlər. Təbii ki, Rusiyanın Azərbaycanla hər hansı bir qarşılıqlı münasibəti onları qıcıqlandırmaya bilməz".

**Anar Əliyevə** görə bir çox istiqamətləri özündə əks etdirən bu razılaşma Azərbaycanın regional nüfuzunu və gücünü daha da artırmış oldu. Şuşa Bəyannaməsindən sonra Azərbaycan bu sənədlə dövlət təhlükəsizliyinə, sərhəd toxunulmazlığına, ərazi bütövlüyünə və suverenliyinə dünya güclərindən biri hesab olunan və Cənubi Qafqazda birbaşa proseslərə təsir etmək imkanlarına sahib Rusiya tərəfindən təhlükəsizlik qarantiyası almış oldu: "Eyni zamanda hesab edirəm ki, bu razılaşma ilə Azərbaycan həm də bir çox iqtisadi istiqamətdə əməkdaşlıq məsələlərini nəzərdə tutan bir razılaşmaya imza atmış oldu. Belə ki, 43 bənddən ibarət olan Moskva Bəyannaməsinin çox böyük bir hissəsində məhz Rusiya və Azərbaycan arasında iqtisadi əlaqələrin daha da gücəndirilməsi, ticari münasibətlərin həcminin daha da artırılması, xüsusilə də malların sərbəst axınını təmin edəcək razılaşmalar öz əksini tapır. Və bu razılaşma ilə Azərbaycan məhsullarının çox geniş əhatəsi olan Rusiya bazarlarına çıxmasına imkanları daha da genişlənəcəkdir. Digər tərəfdən də, təbii ki, Azərbaycan iqtisadiyyatının diversifikasiyası istiqamətində həyata keçirilən dövlət siyasətinə əlavə bir güc, imkanlar da qatacaqdır. Onu da deyim ki, Cənubi Qafqazda baş verən proseslərdə, xüsusilə Ermənistan-Azərbaycan arasındakı münasibətlərin tənzimlənməsində və Qarabağdakı separatçı qüvvələrin tərk-silah edilərək Azərbaycan ərazisindən çıxarılması məsələlərində artıq Rusiya Azərbaycanın yanında yer aldığını ifadə etmiş oldu. Eyni zamanda hesab edirəm ki, Ermənistanla müxtəlif istiqamətli kommunikasiya əlaqələrinin qurulmasına, siyasi, iqtisadi, diplomatik münasibətlərin formalaşmasına, Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistan hissəsində işlərin daha sürətli şəkildə görülməsinə əlavə güc, əlavə dəstək verildi".

A.Əliyev dünyanın böyük güclərindən hesab edilən Rusiya ilə yürüdülən xarici siyasətin Azərbaycanın beynəlxalq proseslərə təsir etmək imkanlarını daha da artıracağını qeyd etdi: "Düşünürəm ki, müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə kifayət qədər Azərbaycanın maraqlarının təmin olunması baxımından mühüm əhəmiyyətli bir sənəddir. Mən dövlət təhlükəsizliyinin təmin olunması baxımından müttəfiqlik fəaliyyəti haqqında Bəyannaməni Şuşa Bəyannaməsinin davamı hesab edirəm. Ona görə də düşünürəm ki, Azərbaycana qarşı təxribat törətmək, cənubi Qafqazda baş verəcək proseslərin pozulmasında maraqlı olan qüvvələr atdıqları hər addımı bir daha düşünmək məcburiyyətində qalacaqlar".

**Yalçın Hacızadə** **dedi ki, Rusiya ilə müttəfiqlik Bəyannaməsi imzalamağımız onun işğalçılıq siyasəti nəticəsində məruz qalacağı sanksiyaların bizim üçün hər hansı bir məsuliyyət yaradacağını düşünmək düzgün olmaz. Yəni bu Bəyannamə bizim Rusiyanın nə işğalçılıq siyasətini dəstəklədiyimizi göstərir, nə də ki, ona tətbiq olunacaq sanksiyaların birbaşa olaraq bizə aidiyyətini. Azərbaycan dövləti digər ölkələrlə münasibətlərdə gücdən istifadəni qəbul etmir. Ona görə də Rusiyanın dağıdıcı hücumuna məruz qalan Ukraynaya müxtəlif növlü dəstək göndərib və göndərməkdə də davam edəcək. Qaldı ki, bizimlə imzalanmış Bəyannaməyə görə, Rusiyanın Ermənistana olan münasibətinin dəyişəcəyini gözləmək sadəlövhlük olardı. Ermənistan Rusiya üçün Cənubi Qafqaza təsir aləti, eyni zamanda Rusiyanın iqtisadi və siyasi vassalıdır. Düşünürəm ki, nə Rusiya Ermənistandan əl çəkməz, nə də Ermənistanın onun vassalığından çıxmasına imkan verməz.**

**Aliyə SƏMƏDOVA**


Naqif Həmzəyev

**Birinci Qarabağ müharibəsi zamanı əsir-girovluqda olmuş şəxslərin şahid ifadələrinə uyğun olaraq aparılan axtarış-araşdırma tədbirləri nəticəsində işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndində və Füzuli şəhəri ərazisində kütləvi məzarlıqlar aşkar edilib.**


İlyas Hüseynov

# Ermənistanın növbəti 30 il susmasına icazə verə bilmərik

**Edilli kəndinin ərazisində ilkin qazıntılar zamanı aşkar olunan meyit qalıqları Azərbaycan vətəndaşlarının ağır işgəncələr verilərək qətlə yetirildiyini sübut edir. Hadisə şahidlərinin məlumatlarına görə, hərbi yük maşınında Edilli kəndinə gətirilmiş onlarla Azərbaycan hərbçisinə və yaşayış məntəqələrinin işğalı zamanı qətlə yetirilmiş mülki şəxslərə aid meyitlər azərbaycanlı əsir-girovların iştirakı ilə kütləvi məzarlıqlarda basdırılıb. Edilli kəndinin ərazisində hələ bir neçə kütləvi məzarlığın da olması ehtimal edilir.**

***Bu cür ağır cinayətləri törətmiş Ermənistanı, onun o dövrdəki siyasi və hərbi rəhbərlərini tezliklə ədalət məhkəməsi qarşısına çıxarmaq mümkün olacaqmı? Bu cinayətkarlar törətdiyi ağır cinayətlərə görə layiqli cəzalarını alacaqlarmı?***

Suallarımızı millət vəkili **Naqif Həmzəyevə** və politoloq **İlyas Hüseynova** ünvanladıq.

**N.Həmzəyev dedi ki, 44 günlük haqq savaşımız nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi və erməni faşistlərini, terrorçularını bu torpaqlardan qovub çıxartdı. Beləliklə, beynəlxalq ictimaiyyət bu problemin Azərbaycanın öz gücü hesabına həll etdiyinin şahidi oldu. Torpaqlarımız işğaldan azad olunduqdan sonra biz vandalizmin daha bir təzahürü ilə qarşılaşdıq. Ermənilər təkcə insanlara qarşı deyil, faktiki olaraq bu müddət ərzində orada mövcud olmuş infrastrukturlara, qəbiristanlıqlara, tarixi abidələrimizə qarşı da soyqırımı törətmişdilər.**



Unutmamalıyıq ki, Birinci Qarabağ savaşı zamanı 4 minə yaxın soydaşımızın taleyi hələ də bizə məlum deyil. Təəssüflər olsun ki, qəsbkar ermənilər həmin vətəndaşlarımızın itkin düşməsi, əsir götürülməsi, öldürülməsi ilə bağlı bizə heç bir məlumat vermir. Lakin artıq kütləvi məzarlıqların yerinin müəyyən olunması üçün bu məsələdə bilavasitə məsuliyyət daşıyan Ermənistanın daha 30 il susmasına icazə verməyəcəyik.

Onu da xatırlatmaq istərdim ki, Ermənistandan fərqli olaraq Azərbaycan 44 günlük müharibədən dərhal sonra, heç bir qarşılıq gözləmədən, 1700-dən çox erməni hərbçisinin cəsədini humanizm prinsiplərindən çıxış edərək qarşı tərəfə təhvil verib. Bununla biz ədalətin, sülhün tərəfdarı olduğumuzu sübut etdik.

**Millət vəkili onu da qeyd etdi ki, şahidlərin səsləndirdiyi fikirlər əsasında həm Füzuli, həm Xocavənd ərazisində kütləvi məzarlıqlar tapılıb və həmin şəxslərin kimliyinin müəyyənləşdirilməsi ilə bağlı araşdırmalar aparılır. Tezliklə biz ən azından burada vəhşicəsinə qətlə yetirilmiş soydaşlarımızın kimlər olduğunu biləcəyik. Amansızlıqla törədilmiş bu cinayətlər soyqırımı statusundadır. Xocalı soyqırımı dünyanın gözü önündə baş verdi və biz bu erməni cinayətlərini müəyyən faktlar ilə dünyaya sübut etdik. Bu kütləvi məzarların tapılması məxfiliklərin üstünü açmağa bizə çox böyük kömək olacaq. Biz soydaşlarımıza qarşı qətliam, soyqırımı və hərbi cinayətlər törətmiş şəxslərin cəza çəkmələri üçün beynəlxalq ictimaiyyət və beynəlxalq məhkəmələr qarşısında məsələlər qaldıracağıq. Bu cinayətlərin törədilməsinə siyasi, ideoloji rəhbərlik etmiş şəxslər layiqli cəzalarını alacaqlar. Azərbaycanın aidiyyatı qurumları bu sahədə aktiv şəkildə çalışır.**

**İlyas Hüseynov** isə bildirdi ki, işğaldan azad edilmiş ərazilərimizdə, Xocavənd rayonunun Edilli kəndində və Füzuli rayonunda kütləvi məzarlıqların aşkarlanması faktı bir daha təsdiq edir ki, Birinci Qarabağ müharibəsi zamanı Ermənistan hərbçiləri tərəfindən beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulub və insanlıq əleyhinə törədilmiş bu cinayət əməlləri özünəməxsus qaydada "məharətlə" gizlədilib. Hazırda kütləvi məzarlıqlarda aşkar olunmuş meyitlərin kimliyinin müəyyən edilməsi prosesi davam etdirilir. Ən önəmlisi kütləvi məzarlıqlarda qadınlar, uşaqlar, hamilə qadınlar, yaşlı şəxslər aşkarlanarsa, bu, 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarının kobud şəkildə pozulması və müharibə cinayəti deməkdir.

**Politoloq onu da qeyd etdi ki, insanlıq və bəşəriyyət əleyhinə törədilmiş bu cinayət əməlləri ilə yerində tanış olmaq və beynəlxalq ictimaiyyətin məlumatlandırılması məqsədilə xarici və yerli kütləvi informasiya vasitələrinin nümayəndələri Xocavənd rayonunun Edilli kəndinə və Füzuli şəhərinə dəvət edilib. Aşkarlanmış faktlar barəsində onlara ətraflı şəkildə məlumat verilmişdir. Birinci Qarabağ müharibəsində erməni separatçı birləşmələri tərəfindən törədilmiş müharibə cinayətlərinin, əsirlərlə münasibətdə beynəlxalq hüquq normalarının pozulması faktlarının, həmçinin kütləvi məzarların yerləri barəsində məlumatın təqdim edilməməsinin məsuliyyəti Ermənistanın üzərində qalır. Beynəlxlaq ictimaiyyət Ermənistan tərəfinə təzyiqləri artırmalıdır ki o, öz üzərinə götürdüyü öhdəlikləri sonuna qədər yerinə yetirsin.**

**Gülöyşə MƏMMƏDLİ**

# Ərzaq inflyasiyasına qarşı Yeni Plan:

## vergi, gömrük güzəştləri, biznesə maliyyə dəstəyi və əlavə stimullar...

**Məlum olduğu kimi, Nazirlər Kabineti tərəfindən hazırlanmış və ötən həftə təsdiq edilmiş "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" Sərəncama əsasən, müxtəlif iqtisadi qurumlar qarşısında bazarlarda baş verən qiymət artımlarının təzyiqinin qarşısının alınması və əhalinin alıcılıq qabiliyyətinə mənfi təsirlərinin azaldılması istiqamətində tədbirlər görmək tapşırılıb.**

Hökumətin sözügedən sərəncamında İqtisadiyyat Nazirliyi qarşısında qoyulmuş mühüm vəzifələrdən biri minimum istehlak səbətinə daxil olan ərzaq məhsulları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması, həmçinin belə məhsulların yerli istehsalçılarının stimullaşdırılması məqsədilə yeni güzəşt-dəstək mexanizmləri hazırlamasıdır.

**İqtisadiyyat naziri Mikayıl Cabbarov** bildirib ki, qiymət dəyişikliklərinin qarşısını almaq üçün indiyədək bir çox dəstəkləyici mexanizmlərdən istifadə edilib. Belə ki, ərzaq məhsullarının idxalının vergi və rüsumlardan, quş və heyvan əti satışının, buğdanın idxalı və satışının, buğda ununun və çörəyin istehsalı və satışının, aqrotexniki xidmətlərin vergidən azad edilməsi, un istehsalçılarına subsidiya verilməsi, güzəştli kreditləşmə imkanlarının genişləndirilməsi və s. kimi tədbirlər dəstək mexanizmləri sırasında özünü doğruldub. Ancaq bununla yanaşı, qlobal bazarın təzyiqi nəticəsində baş verən qiymət artımlarının qarşısını almaq üçün əlavə planlara ehtiyac vardır. Hazırda hökumətin iqtisadi komandası koordinasiyalı şəkildə gücünü, əldə olan bütün mümkün iqtisadi tənzimlənmə vasitələrindən istifadə etməklə, qiymətartırıcı amilləri sabitləşdirmək, aşağı və idarəolunan inflyasiya dəhlizinə qayıdılmasına sərf edib. Müxtəlif dövlət orqanlarının təkliflər paketi əsasında yaxın günlərdə antiinflyasiya Tədbirləri Planı hazırlanacaq və həmin sənəd qiymət artımlarına qarşı hökumətin 2022-ci il üzrə əsas strateji hədəf çərçivəsi olacaq.



**Hazırlanacaq təkliflərdən biri minimum istehlak səbətinə daxil olan ərzaq məhsulları ilə təchizatın yaxşılaşdırılmasıdır. Belə ki, çörək və çörək məhsulları, kartof, tərəvəz və bostan məhsulları, meyvə və giləmeyvə, ət, süd və ət-süd məhsulları, yağ, balıq və balıq məhsulları, şəkər tozu, qənnadı malları, yumurta və digər zəruri qida məhsullarının aylıq istehlak cədvəli hazırlanacaq və həmin malların əhaliyə daha sərfəli qiymətlərlə satışını təmin etmək üçün bazar və satış mərkəzləri ilə əlaqə gücləndiriləcək. Həmin məhsulların qiymətinə əlavə təsir göstərə biləcək xarici faktor nəzərə alınmaqla, Dövlət Gömrük Komitəsinə müvafiq müraciətlər ünvanlanacaq. Gömrük Komitəsi isə öz növbəsində idxal inflyasiyasının təsirinin azaldılması məqsədilə ölkəyə xaricdən gətirilən məhsullara tətbiq edilən gömrük rüsumları və əlavə dəyər vergisi üzrə güzəştlərin verilməsi məsələsini hökumət qarşısında qaldıracaq. Zəruri hallarda istehlak səbətində bir sıra məhsulların bahalaşmasını neytrallaşdırmaq üçün gömrük rüsumlarında aşağı tariflər tətbiq ediləcəkdir. Həmçinin Vergi Xidməti ilə birgə bir sıra mallara ƏDV güzəştlərinin edilməsi də istisna olunmur.**

Bundan başqa, antinflyasiya paketinin əsas bəndlərindən biri istehlak səbətinə daxil olan qida mallarının istehsalçılarının stimullaşdırılmasıdır. Yəni xaricdən gətirilən bir sıra ərzaq mallarının idxalını azaltmaq məqsədilə onu daxili bazarda istehsal və emal etməkdir. Bunun üçün həmin məhsulları istehsal edən kənd təsərrüfatı mülkiyyətçilərinə əlavə imkanlar yaratmaq, daha çox mal tədarük etmək üçün lazım olan bütün təminatı həll etmək lazımdır. Ona görə də minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı, aqrar emal ilə məşğul olan mikro, kiçik və orta sahibkarlar üçün güzəştli maliyyələşdirmə alətlərinin tətbiqi daha da aktuallaşıb. Güzəştlər mikro, kiçik və orta sahibkarlıq subyektlərinin müəyyən dövr üçün vergi və sosial yükün azaldılması, onların həm sadələşdirilmiş vergi, həm də bəzi ƏDV üzrə əla- və təminatlarla əhatə olunmasını da nəzərdə tuta bilər.

Yerli ərzaq mallarının istehsalını artırmaq üçün biznesə həm texniki dəstək, həm də maliyyə dəstəyi lazımdır. Ona görə də sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə dövlət zəmanəti ilə yeni aşağı faizli kreditlərin verilməsini və faizlərin subsidiyalaşdırılmasını ehtiva edən yeni proqramın həyata keçirilməsi planlaşdırılır. Kredit Zəmanət Fondu ilə yanaşı, maliyyə sektorunda bank olmayan kredit təşkilatları, məsələn, "AZPUL" MMC kimi qurumlar sahibkarlara kreditlər verəcəkdir.

Digər bir addım ərzaq məhsullarının qiymət artımının bazar iqtisadiyyatına uyğun qaydalarla - ticarət əlavələri hesabına sabitləşdirilməsidir. Məqsəd ölkə ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı əlavə dəyər vergisinin ticarət əlavəsindən hesablanan vergi ödəyicilərinin qanuna dəvət edilməklə onları şəffaflığa dəvət etməkdir. Nəticədə ƏDV-ni əvəzləşdirən vergi ödəyicilərinin sayının artırılması və bununla da kənd təsərrüfatında ərzaq qiymətlərinə təsir edən halları neytrallaşdırmaqdır.

**Daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi də antiinflyasiya hədəflərində əsas yer tutur. İnhisarçılığa qarşı mübarizədə üzərinə əsas məsuliyyət düşən qurumlardan biri olan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə ticarət məntəqələrində və bazarlarda nəzarət tədbirlərini gücləndirmək tapşırılıb. Xidmətin rəisi Məmməd Abbasbəyli hesab edir ki, aparılan nəzarət tədbirləri müəyyən səmərə versə də, haqsız rəqabətə qarşı mübarizə məqsədilə yeni Məcəllə hazırlanmalıdır. Ədalətli rəqabət mühitinin yaradılması və sahibkarların səmərəli və maneəsiz fəaliyyətinin təmin olunması məqsədilə Rəqabət Məcəlləsinin qəbul edilməsi olduqca vacibdir.**

**Elbrus CƏFƏROV**




**Ölüm harada qeydə alınır?**

**Cavad MƏMMƏDLİ, Şirvan şəhəri.**

- Ailə Məcəlləsinin 159-cu maddəsinə əsasən, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı müvafiq icra hakimiyyəti orqanları- Ədliyyə Nazirliyinin müvafiq qeydiyyat orqanları tərəfindən aparılır.

Müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün qeydiyyatını aparır, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını dəyişir, tamamlayır, düzəldir və ləğv edir, itmiş qeydləri bərpa edir, akt kitablarını saxlayır və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələr verirlər.

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı bir qayda olaraq həmin orqanların yerləşdiyi binada (otaqda) həyata keçirilir. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının yerləşdiyi binalardan (otaqlardan) kənarda da aparıla bilər.

Həmin Məcəllənin 193-cü maddəsinə əsasən, ölümün qeydə alınması ölmüş şəxsin yaşamış olduğu yerdə və ya ölümün baş verdiyi yerdə aparılır.

Ölümün qeydə alınması ölmüş şəxsin qohumlarının, onun qonşularının, mənzil-istismar təşkilatları işçilərinin məlumatı üzrə, habelə ölümün baş vermiş olduğu təşkilatın müdiriyyətinin və başqa şəxslərin məlumatı üzrə aparılır.

Ölüm haqqında məlumat ölümün baş verdiyi və ya meyitin tapıldığı vaxtdan 10 gündən gec olmayaraq verilməlidir.

Ölüm faktının müəyyən edilməsi haqqında və ya vətəndaşın ölmüş elan edilməsi haqqında məhkəmənin qətnaməsi üzrə ölümün qeydə alınması qətnamə çıxarmış məhkəmənin olduğu yerdə aparılır.

**Məcburi dövlət sosial sığortasına hansı şəxslər cəlb olunur?**

**Sənan MƏMMƏDOV, Quba şəhəri.**

- "Sosial sığorta haqqında" qanunun 12-ci maddəsində məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslər dəqiq göstərilmişdir. Həmin maddəyə 30 noyabr 2018-ci ildə edilmiş dəyişikliklərdən sonra qüvvədə olan mətninə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin qərarı, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə vəzifəyə təyin olunan şəxslə; əmək müqaviləsi (kontraktı) ilə işləyən Azərbaycan Respublikasının vətəndaşları və vətəndaşlığı olmayan şəxslər; Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilər (qanunla təsdiq olunmuş neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında Sazişlər çərçivəsində fəaliyyət göstərən podratçı və subpodratçı tərəflərdə işləyən, habelə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən (2016-cı il mayın 1-dən 5 il müddətində) əcnəbilər istisna olmaqla); seçkili ödənişli vəzifələrdə işləyənlər, hərbi qulluqçular və xüsusi rütbəli şəxslər (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla); prokurorlar, prokurorun müavinləri və köməkçiləri, prokurorluğun müstəntiqləri, vergi orqanlarının işçiləri; vəkillər kollegiyasının üzvləri; fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər məcburi dövlət sosial sığortası ilə əhatə olunurlar.

**Şəhid ailə üzvlərinə hansı təminatlar (güzəştlər) verilir?**

**Qəndab VƏZİROVA, Goranboy rayonu.**

-Şəhid ailəsi statusunu almış ailə üzvlərinə qanunvericiliklə aşağıdakı təminatlar (güzəştlər) müəyyən edilmişdir:

- "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şəhidin ailə üzvünə ailə başçısını itirməyə görə pensiya təyin edilir;

- şəhidin ailə üzvlərinə işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda üstünlük verilir, müəssisənin, idarənin, təşkilatın fəaliyyəti dayandırıldıqda isə onlar işlə təmin olunur;

-sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı şəhidin ailə üzvlərinə üstünlük verilir

- Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.3.3. maddəsinə əsasən, şəhid olmuş şəxslərin ailə üzvlərinin əldə etdiyi maddi yardımın 20000 manatadək olan hissəsi və 102.1.25-1. maddəsinə əsasən, Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir vergisindən azaddır.

-mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar;

-şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir;

-həkim reseptləri üzrə dərman almaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və məbləğdə müavinət verilir;

-dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alanlar təhsil haqqını ödəməkdən azad olunurlar;

-tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada təmin edilirlər;

-sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı onlara üstünlük verilir.

**İşçinin sağlam və təhlükəsiz əmək şəraitinə təminat verilməsi barədə əmək müqaviləsində qeyd olmalıdırmı?**

**Gülüş QƏDİMOVA, Şabran şəhəri.**

-Bəli, əmək müqaviləsində hökmən işəgötürən tərəfindən işçinin sağlam və təhlükəsiz əmək şəraitinə təminat verilməsi barədə öhdəliyi göstərilməlidir.

İşçi peşə xəstəliyinə tutulmağa yüksək təhlükə məruz qalmaq ehtimalı olan işə qəbul edilərkən belə xəstəliyə tutulmağın ehtimal olunan müddəti barədə işəgötürən onu hökmən xəbərdar etməlidir. Bu halda yalnız həmin müddətlə məhdudlaşan müddətli əmək müqaviləsi bağlanmalı və onun müddəti bitdikdən sonra işçiyə əvvəlki orta əməkhaqqı saxlanılmaq şərtilə başqa iş verməlidir.

**( Əmək Məcəlləsi, maddə 224)**

**Etibarnamə hansı müddətə verilir?**

**Aytən QƏDİMOVA, Bakı şəhəri.**

- Mülki Məcəllənin 363.3-cü maddəsinə əsasən, nəqliyyat vasitəsinə dair sərəncamvermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz. Bu istisnadan başqa, etibarnamə istənilən müddətə verilə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o, bağlandığı gündən bir il ərzində qüvvəsini saxlayır. Əgər etibarnamədə bağlandığı tarix göstərilməyibsə, bu etibarnamə əhəmiyyətsizdir.

Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə notarius tərəfindən təsdiqləndikdə etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır.

**Əmək münasibətlərində " yaxın qohum" dedikdə kimlər başa düşülür?**

**Murad ƏLİYEV, Gəncə şəhəri.**

- Əmək Məcəlləsinin 296-cı maddəsinin "qeyd " hissəsinə əsasən, "yaxın qohum" dedikdə, işçinin atası, anası, babası, nənəsi, əri (arvadı), uşaqları, bacıları, qardaşları, qudaları, ərinin (arvadının) valideynləri, qardaşları, bacıları başa düşülməlidir.

**Peşə təhsilini bitirənlərə hansı sənəd verilir?**

**Mina MÜRSƏLOVA, Bakı şəhəri.**

- "Peşə təhsili haqqında" qanunun 14-cü maddəsinə uyğun olaraq, peşə təhsili müəssisəsində təlim proqramını (kurikulumu) mənimsəmiş, dövlət buraxılış imtahanlarını müvəffəqiyyətlə vermiş təhsilalanlara peşə təhsili pilləsində təhsil haqqında dövlət sənədi verilir. Təhsil haqqında dövlət sənədi növbəti səviyyədə və pillədə təhsili davam etdirmək və ya ixtisas üzrə əmək fəaliyyətinə başlamaq üçün hüquqi əsas sayılır.

Müvafiq kursu (modulu) bitirdikdən sonra təhsilini müxtəlif səbəblərdən davam etdirməyən şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada arayış verilir.

Peşə təhsili müəssisəsini müvəffəqiyyətlə bitirənlərə peşə təhsilinin hər bir səviyyəsinə uyğun kvalifikasiya dərəcəsi göstərilməklə aşağıdakı növ təhsil haqqında dövlət sənədləri verilir:

-diplom (adi);

-diplom (fərqlənmə);

-sertifikat (qısamüddətli kursları bitirənlərə);

-peşə təhsili müəssisələrində peşə təhsili ilə yanaşı, tam orta təhsil almış şəxslərə diplom və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tam orta təhsil haqqında attestat verilir;

-yüksək texniki peşə təhsili alanlara sub-bakalavr peşə-ixtisas dərəcəsi verilir.

**Daşınmaz dövlət əmlakının icarəyə verilməsi zamanı hansı sənədlərin təqdim olunması tələb olunur?**

**Etibar VƏLİYEV, Sumqayıt şəhəri.**

- Daşınmaz dövlət əmlakının icarəyə verilməsi zamanı aşağıdakı sənədlər tələb olunur:

-Ərizə

-Balans saxlayıcının razılıq məktubunun surəti

-Fiziki şəxsin şəxsiyyət vəsiqəsinin surəti (hüquqi şəxsin təsis sənədlərinin notarial qaydada təsdiq edilmiş surəti)

-Sahənin eskizinin surəti

-Əmlak əvvəl icarədə olduğu halda əvvəlki icarə müqaviləsi icarəçi dəyişildikdə imtina ərizəsi və ya müqaviləyə qanunvericilikdə nəzərdə tutulmuş qaydada xitam verilməsi barədə sənəd

-Sahə əvvəl icarədə olduğu halda icarə haqqının ödənilməsini təsdiq edən sənəd

-Nümunəsi təsdiq olunmuş formalarda tərtib olunmuş toplu.

**Mən yoldaşımla 17 ildir ki, dini nikah bağlayıb yaşayırıq. İndi məhkəməyə verib ayrılmaq istəyirəm. Amma məhkəmədə deyirlər ki, sən məhkəməyə verə bilməzsən. Sənin "zaqs"ın yoxdur, nəyi ləğv edəcəyik? Dini nikahı ləğv etmək olmaz?**

**Aygün HƏŞİMOVA, Yevlax şəhəri .**

-Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız Ədliyyə Nazirliyinin qeydiyyat şöbələrində bağlanmış nikah tanınır.

Nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini Ailə Məcəllləsi müəyyən edir. Məcəllə ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir.

Həmin Məcəllənin 1-ci maddəsinə əsasən, dini kəbinkəsmə (dini nikah) hüquqi əhəmiyyətə malik deyildir.

Azərbaycan Respublikasında ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir.

Amma dini kəbinkəsmə heç bir hüquqi nəticə törətmir və qanunla qorunmur, müdafiə olunmur. Dini kəbinkəsmə hüquqi əhəmiyyətə malik olmadığına görə onun ləğvinə məhkəmə orqanlarında baxılmır.

**Əməyin mühafizəsi üzrə işçilərin hansı vəzifələri var?**

**Qənirə SƏFƏROVA,Tovuz rayonu.**

- Əməyin mühafizəsi üzrə müvafiq normativ aktlarda nəzərdə tutulmuş əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tələblərini öyrənmək, mənimsəmək və onlara əməl etmək;

əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymayacağı təqdirdə icra etmək, şəxsi buraxılış olmadan qurğularda, dəzgahlarda, partlayış və həyat üçün təhlükəli digər mənbələrdə iş görməmək;

verilmiş xüsusi geyimdə və ayaqqabıda işləmək, texnoloji prosesdə, əməyin mühafizəsi üzrə normalarda, qaydalarda və təlimatlarda nəzərdə tutulmuş fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etmək;

əməyin mühafizəsi qaydalarının bütün pozuntuları haqqında, həmçinin baş vermiş qəzalar və bədbəxt hadisələr haqqında işəgötürənin nümayəndələrinə dərhal məlumat vermək;

müntəzəm olaraq əməyin mühafizəsi normaları və qaydaları barədə biliklərini artırmaq;

əməyin mühafizəsi məsələləri ilə əlaqədar işəgötürənin, iş yeri üzrə rəhbərinin, mütəxəssislərin tapşırıqlarına, məsləhətlərinə, tövsiyələrinə əməl etmək.

**(Əmək Məcəlləsi, maddə 216)**

**Azad Zonada əsas iqtisadiyyatın qanunvericiliyi tətbiq edilirmi?**

**Nailə QASIMOVA, Şəki şəhəri.**

- "Ələt azad iqtisadi zonası haqqında" qanunun 3-cü maddəsinə əsasən, Azad Zonada Azad Zona qanunvericiliyi tətbiq edilir. Azad Zonada əsas iqtisadiyyat qanunvericiliyi yalnız həmin Qanunda göstərilən hallarda tətbiq edilir. Azad Zona qanunvericiliyi ilə əsas iqtisadiyyat qanunvericiliyi arasında ziddiyyət yaranarsa, Azad Zona qanunvericiliyi tətbiq edilir.

Həmin Qanun ilə daxili qaydalar arasında ziddiyyət yaranarsa, Qanun tətbiq olunur.

Azad Zona səlahiyyətli qurumu Azad Zona qanunvericiliyinin ingilis dilinə tərcümə edilmiş mətnlərinin autentikliyini təsdiq edir. Azad Zona səlahiyyətli qurumu tərəfindən autentikliyi təsdiq edilmiş Azad Zona qanunvericiliyi Azərbaycan dilində olan Azad Zona qanunvericiliyi ilə eyni hüquqi qüvvəyə malikdir. Azad Zona daxili qaydaları Azərbaycan və ingilis dillərində dərc olunur.

Adıçəkilən Qanunun 4-cü maddəsinə əsasən, Azad Zonada əsas iqtisadiyyatın cinayət qanunvericiliyi tətbiq edilir.

**İcbari sığorta müqaviləsi mütləq bağlanılmalıdırmı?**

**Füzuli PƏNAHOV, Ağdaş şəhəri.**

- İşəgötürən "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanuna uyğun olaraq hər bir işçinin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təmin etməlidir. Əmək müqaviləsində işçinin sığortalanması barədə məlumatlar göstərilməlidir.

**(Əmək Məcəlləsi, maddə 225)**

İcbari sığorta qanunları ilə üzərinə icbari qaydada sığorta etdirmək vəzifəsi qoyulan şəxs müvafiq icbari sığorta növünü apparmağa icazəsi olan sığortaçını sərbəst seçmək hüququndan istifadə etməklə müvafiq icbari sığorta müqaviləsini bağlamağa borcludur.

**(Mülki Məcəllə, maddə 907.1.)**

**Əmək pensiyaları haqqında qanunvericilik hansı normativ-hüquqi aktlardan ibarətdir?**

**Leyli MƏCİDOVA, Xırdalan şəhəri.**

-Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Əmək pensiyaları haqqında" qanundan və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə "Əmək pensiyaları haqqında" qanunda müəyyən edilmiş qaydalardan fərqli qaydalar olduqda, beynəlxalq müqavilələrdə nəzərdə tutulan qaydalar tətbiq edilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**



# Xüsusi tədbirlər planı təklif olunub

**Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən təşkil olunan "İnsan yönümlü bərpa üzrə Qlobal Forum" başa çatıb. Üç gün davam edən tədbir dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatların və çoxtərəfli inkişaf banklarının rəhbərlərini, dünyanın müxtəlif ölkələrindən işəgötürənlərin və işçilərin liderlərini bir araya gətirib. Forumda insan amili bir daha önə çəkilib və COVID-19 böhranı ilə dərinləşmiş təhlükəli bərabərsizliyi aradan qaldıran bərpa prosesinin inkişaf etdirillməsi üzrə öhdəliklər təsdiqlənib. Həmçinin pandemiyanın sosial və iqtisadi nəticələrinə dair beynəlxalq ictimaiyyətin reaksiyası müzakirə edilərək xüsusi tədbirlər planı təklif olunub.**

İnsan yönümlü bərpa məqsədlərinə nail olmaq üzrə öhdəliklər Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP), İslam İnkişaf Bankı (İİB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Valyuta Fondu ( BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Asiya İnkişaf Bankı (AİB), Məşğulluq və Sosial Hüquqlar üzrə Avropa Komissarı (ÜTT), Ümumdünya Ticarət Təşkilatı (ÜTT), Dünya Bankı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası, UNİCEF, Afrika İnkişaf Bankı (AİB), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və BMT-nin İqlim və Maliyyə üzrə xüsusi nümayəndəsi tərəfindən götürülüb.

Argentina, Belçika, Misir, Almaniya, İndoneziya, Yamayka, Mozambik, Koreya Respublikası, Samoa, Seneqal, İspaniya və İsveçrənin dövlət və hökumət başçıları da analoji dəstəyi ifadə ediblər.

**BƏT-in Baş direktoru Qay Rayder Forumun bağlanış mərasimində çıxış edərək hazırda əmək sahəsində mövcud olan zəifliyin və qeyri-bərabərliyin pandemiya nəticəsində meydana gəldiyini vurğulayıb.**

"Biz dünyada iqtisadiyyatımızın sabitliyinin bərpasına ciddi yanaşmalıyıq. Zənnimcə, bu, bizdən siyasətin işlənib hazırlanmasına kompleks yanaşmaların tətbiqini tələb edir. Həqiqətən də, beynəlxalq sistemin hər bir hissəsi üçün digərlərindən fərqli olaraq, öz konkret mandatı ilə məşğul olmaq az əhəmiyyət kəsb edir və bu, əlbəttə ki, siyasətin uzlaşma məntiqidir", - deyə Q.Rayder bildirib.

Forumun tematik sessiyalarında əmək dünyası qarşısında duran ən aktual məsələlər, inklüziv inkişaf və layiqli iş yerləri, ümumi sosial müdafiə, işçilərin müdafiəsi və müəssisələrin dəstəklənməsi, həmçinin karbon neytrallığına ədalətli keçid məsələləri nəzərdən keçirilmişdir. Tədbir COVID-19 böhranından inklüziv, davamlı bərpaya necə nail olmaq barədə müzakirələr ilə yekunlaşıb.

**BMT-nin Baş katibi Antonio Quterreş deyib ki, Forumda bir çox nümayəndələr ölkələr arasında və onların daxilində iqtisadiyyatın və məşğulluğun bərpasına təhlükə yaradan pandemiyanın qeyri-bərabərliyindən danışdılar. Zəngin ölkələr öz ÜDM-nin daha böyük bir hissəsini bərpaya sərmayə yatırırlar. Gəlir səviyyəsi aşağı olan bir çox ölkələr artan borcun təsirindən tələyə düşür və resursların çatışmazlığına məruz qalır. İnkişaf etməkdə olan ölkələr isə davamlı olaraq kütləvi iş yeri çatışmazlığı ilə üzləşir.**

**Qlobal Forumda əldə edilən siyasətin çoxtərəfli uzlaşmasının əsas nəticələri aşağıdakılardır:**

-Məşğulluq və sosial müdafiə üzrə qlobal sürətləndirici üçün ümumi yol xəritəsinin işlənib hazırlanması və rəsmiliyə aparan yolların irəliləməsi ilə birgə qlobal təşəbbüsün işə salınması və həyata keçirilməsi məqsədilə BƏT və BMTİP arasında yeni tərəfdaşlıq.

-İşçilərin psixi sağlamlıq, peşə travmaları və xəstəlikləri risklərindən daha yaxşı qorunması və səhiyyə sahəsində böhranlar zamanı iş yerlərinin hazırlanması məqsədilə səhiyyə sektoru ilə əmək sahəsi müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsi üçün ÜST ilə BƏT arasında əməkdaşlığın dərinləşdirilməsi.

**-Yeni Çərçivə Sazişi layihələr üzrə əməkdaşlığı gücləndirmək və gender bərabərliyi, ədalətli keçid və iş yerləri üçün iqlim dəyişikliyinə qarşı mübarizə tədbirləri kimi sahələrdə texniki yardım göstərmək üçün AYİB ilə işlənib hazırlanacaq.**

-İİB ilə insan yönümlü bərpa işlərini dəstəkləmək üçün imzalanacaq yeni anlaşma memorandumu gənclərin iqtisadi hüquq və imkanlarının genişləndirilməsi, gender bərabərliyi, böhran şəraitində layiqli iş və üçtərəfli əməkdaşlığının inkişafı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutur.

-BVF-nin sosial xərcləri qorumaq və ölkələr arasında bərpa işlərində təhlükəli uyğunsuzluqla mübarizə aparmaq üçün onlara prioritet əhəmiyyət vermək öhdəliyi qoyulub.

**-AİB və BƏT arasında əməkdaşlığın gücləndirilməsi, iqlim dəyişikliyinə qarşı mübarizənin maliyyələşdirilməsi və kömür elektrik stansiyalarının aradan qaldırılması üçün bankın fəaliyyətinə dəstək verən sosial müdafiə və məlumatların uyğunlaşdırılması sisteminin potensialının yaxşılaşdırılması.**

-İƏİT ilə BƏT arasında ədalətli keçid və məhsuldarlığın artırılması sahəsində əməkdaşlığın dərinləşməsi.

-Afrika İnkişaf Bankı ilə gənclərin bacarıqlarının və məşğulluğunun inkişafı sahəsində əməkdaşlığın gücləndirilməsi.

**-Ədalətli keçidin planlaşdırılmasında ölkələri dəstəkləmək üçün BƏT və BMT-nin Mülki Müdafiə Komitəsi arasında əməkdaşlığın genişləndirilməsi.**

-UNICEF-in BƏT və daha geniş bir ailə ilə əməkdaşlıqda iştirakının dərinləşdirilməsi universal sosial müdafiəyə nail olmaq üçün irəliləyişi təmin etməkdir.

**-BƏT ilə birgə rəhbərlik etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə (USP2030) nail olmaq üçün Universal Sosial Müdafiə üzrə Qlobal Tərəfdaşlığa Dünya Bankının güclü öhdəliyi.**

-Ölkələrin və qurumların geniş dairəsi tərəfindən ədalətli keçid üçün qlobal məşğulluq sürətləndiricisinin və sosial müdafiənin dəstəklənməsinin qətiyyətli ifadəsi.

**Digər çoxtərəfli tərəfdaşlar da insan yönümlü bərpa elementlərini qeyd ediblər. BMT-nin İqlim və Maliyyə üzrə xüsusi nümayəndəsi iqlim böhranının aradan qaldırılması üçün insan yönümlü keçidin zəruriliyini vurğulayıb. Məşğulluq və Sosial Hüquqlar üzrə Avropa Komissarı BƏT-in layiqli əməyinin dörd əsas prinsipini rəhbər tutaraq, qlobal iqtisadiyyata ədalətli keçid və davamlı bərpa məqsədilə Avropa İttifaqının layiqli əmək haqqında yeni məlumatının reallaşdırılmasına diqqət çəkib. FAO effektiv, təsirli və ardıcıl tərəfdaşlıq münasibətləri və qlobal həmrəylik vasitəsilə etibarlı sosial müdafiə sistemlərinin yaradılması üçün əlavə maliyyələşməni səfərbər etməyi öz üzərinə götürmüşdür. ÜTT həyat səviyyəsinin yüksəldilməsi, layiqli iş yerlərinin yaradılması və insanların rifahının yüksəldilməsi üçün ticarətin həyati zəruriliyindən danışdı.**

# DİREKTİVLƏ BAĞLI CİDDİ NARAHATLIQ

**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) Avropa İttifaqı (Aİ) Komissiyası tərəfindən korporativ sabitlik və hərtərəfli yoxlama haqqında uzun müddətdir gözlənilən direktivlə bağlı ciddi narahatlığını ifadə edib. Direktiv bütün işçilər üçün minimum hüquq səviyyəsinə zəmanət verən, iqlimi dəstəkləyən və korporativ hesabatlılığı təmin etməklə korporativ cəzasızlığa son qoyan qlobal normativ-hüquqi sənədə dair BHİK-in tələbinin həyata keçirilməsində mühüm addımdır.**




Bununla yanaşı, layihə zərərçəkənlər və hüquq sahibləri üçün qeyri-müəyyənlik yaratmaqdadır.

**Xüsusilə narahatlıq doğuran məqamlar bunlardır:**

- Aİ Parlamentinin 2021-ci ilin martında dərc edilmiş lazımi araşdırma və korporativ məsuliyyət haqqında qətnaməsindən fərqli olaraq, zərərçəkənlər (qurbanlar) və hüquq sahibləri bu layihənin diqqət mərkəzində deyil;

**- Birləşmiş Millətlər Təşkilatının biznes və insan hüquqları üzrə rəhbər prinsiplərinin bütün bizneslər üçün müəyyən etdiyi əsas prinsiplər və onların bu layihədə insan hüquqlarına lazımi diqqəti həyata keçirmək öhdəliyi kiçik və orta sahibkarlıq üçün istisnalarla qarışdırılır;**

- müəyyən edilmiş işgüzar münasibətlərə dar istiqamət böyük boşluq açır;

- layihə müqavimət göstərən müəssisələri mükafatlandırır və uzun illər ərzində kompleks yoxlama və korporativ hesabatlılığa investisiya edən müəssisələri cəzalandırır.

BHİK-in Baş katibi Şaran Barrou deyib ki, bu layihədə, şübhəsiz, yaxşı məqamlar yer alıb. Avropa şirkətləri də daxil olmaqla, bütün dünyada şirkətlər tərəfindən əmək və həmkarlar ittifaqı hüquqlarının pozulması da daxil olmaqla, insan hüquqları və ətraf mühitin pozulması hallarının artdığı indiki dövrdə davamlı korporativ kompleks yoxlama üçün güclü direktivə təcili ehtiyac var.

**Bizim Avropa İttifaqındakı həmkarlarımız, digər vətəndaş cəmiyyəti təşkilatları və biznes və insan haqları ictimaiyyətindəki dostlarımızla məsləhətləşmələr aparmaq və bu uyğunsuzluqların aradan qaldırılması üçün görməli işimiz çoxdur. Müəssisələrin insan hüquqlarına və planetə mənfi təsirlərinə görə məsuliyyətə cəlb edilməsi bu Direktivin vəd etdiyi yeni biznes modelinin əsasını təşkil etməlidir.**

# Rəqəmsal xidmət və bazar qanunlarına dair danışıqlarda şəffaflıq tələbi




**Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyi (EPSU) digər həmkarlar ittifaqları, rəqəmsal hüquq müdafiəçiləri və şəffaflıq tərəfdarları ilə birlikdə rəqəmsal xidmətlər və rəqəmsal bazar qanunları ilə bağlı danışıqlar aparanlardan açıqlıq tələb etdi. "Rəqəmsal bazarlar haqqında" və "Rəqəmsal xidmətlər haqqında" qanunlar rəqəmsal xidmətlərin daha təhlükəsiz olmasını təmin edə biləcək, həmçinin istifadəçilərin, işçilərin və kiçik biznesin imkanlarını qorumaq və genişləndirmək üçün iki qarşılıqlı təklifdir. Onlar lap əvvəldən xüsusilə iri texnoloji firmalar və onların vasitəçiləri tərəfindən intensiv lobbiçilik obyektinə çevrilmişdilər. Avropa Parlamentinin nümayəndə heyəti ilə hazırda Fransanın rəhbərliyi ilə Şura arasında danışıqlar aparılır.**

Rəqəmsal xidmətlər və rəqəmsal bazarlar haqqında qanun üzrə danışıqların trilogiyasının vətəndaşlar üçün həqiqətən şəffaf və açıq olmasını təmin etməklə bağlı qanunvericilərdən xahiş edirik:

**-Avropa Ombudsmanının tövsiyəsinə uyğun olaraq üçtərəfli danışıqlar zamanı müzakirəyə çıxarılmış sənədlərin siyahısını vaxtında dərc etmək;**

**-Qısa gündəliklər də daxil olmaqla, üçtərəfli iclasların aktual təqvimini hazırlamaq;**

**-Əvvəlcədən dörd sütundan ibarət bir sənəd çap etmək.**




# SOSİAL İQTİSADİYYATIN ƏHƏMİYYƏTİ

**Fevralın 28-də Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyi (EPSU) Avropa Parlamentinin Sosial İqtisadiyyat üzrə Məşğulluq Komitəsinin dinləmələrində iştirak etmişdir. Həmkarlar ittifaqları və sosial-iqtisadi təşkilatlar arasında uzunmüddətli əməkdaşlıq və qarşılıqlı dəstəyin dərin tarixi var. Hər ikisi cəmiyyətlərimizi özəl maraqlara və kollektiv və ictimai rifaha faydalara vurğu ilə yenidən istiqamətləndirmək zəruriliyinə həssasdır. Sosial iqtisadiyyat ictimai xidmətlərin bir çox sahələrində aktivdir. Dinləmələrdə deyilir ki, sosial iqtisadiyyat ictimai xidmətləri əvəz etməli deyil, tamamlamalıdır. Sosial iqtisadiyyat həm də keyfiyyətli ictimai xidmətlərdən və infrastrukturdan faydalanır. Avropa İttifaqı üzv dövlətləri keyfiyyətli dövlət xidmətlərinin göstərilməsində təşviq etməli və dəstəkləməlidir.**

Qeyd olundu ki, sosial iqtisadiyyat fəaliyyət planında işçilərin hüquqları, kollektiv danışıqlar və sosial dialoq haqqında məlumat azdır. Üzv dövlətlər və sosial tərəfdaşlar xüsusilə sosial iqtisadiyyatın inkişafının əsas sahəsi kimi müəyyən edilmiş sosial xidmət sahəsində kadr çatışmazlığı və əmək şəraitinin pis olması problemini həll etməlidir. Avropaya ehtiyacı olanlara əlverişli və keyfiyyətli yardım göstərilməsinə yönəlmiş kompleks strategiya lazımdır. Bu da gender bərabərliyini təmin etmək üçün vacibdir. Dövlət investisiyaları / xərcləri hamıya qayğı hüququnun təmin edilməsi üçün əsas olaraq qalır. Çərçivə sosial iqtisadiyyatın və özəl investisiya təşkilatlarının xüsusi missiyasını qorumalı və qeyri-kommersiya prinsiplərinə uyğun olmalıdır.

Səhifəni hazırladı: Azər MUSTAFAYEV

úlfat
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ



# Yubiley yaşı qeyd olundu



**"Azəriqaz" İstehsalat Birliyinin Ağsu Regional Qaz İstismarı İdarəsinin Şamaxı Xidmət Sahəsi üzrə rəis müavini Səhrab Səfərovun 60 yaşı tamam olur. Bu münasibətlə kollektivin hörmət və rəğbətini qazanmış əməkdaşı ilə görüş keçirilib. Görüşdə Birliyin baş direktorunun istismar üzrə müavini Cahid Hüseynov, Həmkarlar İttifaqı Komitəsinin sədri Ədalət Qurbanov və İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev iştirak ediblər.**

Birlik rəhbərliyi yubiley yaşını qeyd edən S. Səfərov barədə xoş sözlər səsləndirib. O, baş direktorun müavini Cahid Hüseynov tərəfindən "Azəriqaz" İB-də faydalı işinə, nümunəvi əmək fəaliyyətinə və həmkarlar ittifaqı hərəkatında fəal iştirakına görə" Fəxri Fərman və qiymətli hədiyyə ilə mükafatlandırılıb.

**Qeyd edək ki, o, 2012-ci ildə Birliyin Texniki nəzarət şöbəsində mühəndis vəzifəsində fəaliyyətə başlayıb. Daha sonra "Azəriqaz" İB-də bir sıra məsul vəzifələrdə çalışıb. Hazırda o, Birliyin Ağsu Regional Qaz İstismarı İdarəsinin Şamaxı Xidmət Sahəsi üzrə rəis müavini vəzifəsini icra edir.**

**Prezident İlham Əliyev Gənclər Günü ilə bağlı keçirilən tədbirdə qarşımızda duran prioritet məsələlərdən biri kimi, düzgün və sürətli informasiyanın təkmilləşdirilməsinin vacibliyini qeyd etdi. Bildirdi ki, sosial şəbəkələrdə üstünlüyü əldə etmək üçün, əlbəttə ki, orada paylaşılan məlumat da təsirli olmalıdır, həqiqəti əks etdirməlidir, bütün normal qaydalara uyğun olmalıdır: "Müharibə başa çatdı, mən demişəm ki, biz üçüncü müharibə istəmirik. Əgər özümüz üçün təhdid görməsək, biz hər hansı bir addım atmaq fikrində deyilik, ancaq informasiya müharibəsi davam edir və bu, müharibənin sonu olmayacaq. Dövlət orqanları da bu sahədə fəal olmalıdır və bizim bir çox dövlət qurumlarımız artıq bu imkanlardan istifadə edirlər. Bu, kütləvi xarakter daşımalıdır ki, biz bu yeni informativ məkanda daim öz həqiqətlərimizi çatdıra bilək".**

# Rəsmi, doğru, dayanıqlı informasiyanın əlçatanlığı təmin olunmalıdır

**Gənclərin Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında fəal iştirakını necə tənzimləmək olar? Hazırda bu istiqamətdə görülən işlər yetərli səviyyədədirmi? Dövlət qurumlarımız bu yöndə hansı addımlar atmalıdır?**

***Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz*** mövzu ilə bağlı fikirlərini bizimlə bölüşdü. Dedi ki, informasiya müharibələri hazırda qlobal dünyanın başlıca problemlərindən biridir. Əvvəllər bu sahə elə də ciddi əhəmiyyət kəsb etməsə də, son dövrlərdə dövlətlərin bir-birilərinə qarşı informasiya müharibəsindən istifadəsinə tez-tez rast gəlirik. Yəni öz maraqlarına uyğun dezinformasiya yayır, çaşqınlıq yaradır, informasiyanı manipulyasiya edirlər. Məqsədyönlü şəkildə hökumətlər, müxtəlif maraqlı qruplar, təşkilatlar tərəfindən ölkəmizə qarşı manipulyasiya olunmuş, dezinformasiya xarakterli informasiyaların yayılması ilə də mütəmadi qarşılaşırıq. Xüsusən də Vətən müharibəsi və postmüharibə dövrlərində yayılmış dezinformasiyalarla mübarizə zamanı bu sahənin təkmilləşdirilməsinin nə qədər vacib olduğunu yəqin etdik. Hesab edirəm ki, bunun qarşısının alınması və əsl həqiqətlərin dünyaya çatdırılması ilə bağlı dövlət və media qurumlarının üzərinə ciddi vəzifələr düşür. İlk növbədə Azərbaycanın haqq səsinin, həqiqətlərimizin beynəlxalq aləmə çatdırılması istiqamətində iş aparılmalıdır. Bunun üçün məlumatın ilkin mənbəsi biz olmalıyıq. Çünki başqa mənbədən çıxmış dezinformasiyanı təkzib etmək artıq gecikmiş addım sayılır. Elə mexanizm tətbiq olunmalıdır ki, rəsmi, doğru, dayanıqlı informasiyanın əlçatanlığı təmin olunsun. Bu prosesin gedişatında isə ciddi problemlər var. Azərbaycanda operativ olaraq rəsmi informasiyanı işləmək, əldə etmək, ötürmək resurs tələb edir. Ona görə də ilk növbədə dövlət qurumlarında elektron informasiya istehsalı prosesi düzgün qurulmalıdır. Yanlış məlumatları önləmək, onun müqabilində adekvat addım atmaqla uyğun həqiqi informasiyanın çatdırılması mexanizmi qurulmalıdır. Bunun üçün mərkəzlər yaradılmalıdır. Bu sahədə kadrların hazırlanmasına diqqət yetirilməlidir. Azərbaycanın internet və xarici dilli media resurslarının sayı artırılmalıdır. Mütəmadi olaraq kadrlara təlimlər keçirilməli, onlar beynəlxalq təcrübə üçün xaricə göndərilməlidir. Həmçinin ölkəyə xarici mütəxəssislər dəvət olunmalıdır. O cümlədən maddi-texniki bazanın gücləndirilməsi istiqamətində informasiya qurumlarına dəstək verilməlidir.



**Ukrayna və Rusiya arasında gedən müharibənin informasiya sahəsinə də toxunan Osman Gündüz bildirdi ki, biz bir daha şahid oluruq ki, yalnız hərbi sahədə deyil, informasiya cəbhəsində də şiddətli döyüşlər gedir.**

***Əsli ƏHMƏDOVA***

## ALLAH RƏHMƏT ELƏSİN!

AHİK-in İcraiyyə Komitəsi və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AHİK sədri, millət vəkili Səttar Möhbalıyev və İcraiyyə Komitəsi Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Xidmət-İş" Hİ Federasiyasının prezidenti İlyas Əliyev və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Xidmət-İş" Hİ Federasiyasının prezidenti İlyas Əliyev və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri sahə Hİ Sabunçu Rayon Komitəsinin sədr müavini Ramik Xudiyevə anası
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səhiyyə İşçiləri HİRK-in sədri Emin Əfəndiyev və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səhiyyə İşçiləri HİRK-in sədri Emin Əfəndiyev və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Kənd- Qida-İş" Hİ Federasiyasının sədri Tofiq Quliyev və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Kənd-Qida-İş" Hİ Federasiyasının sədri Tofiq Quliyev və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Elmlər Akademiyası Azad Hİ-nin sədri Habil Qurbanov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Elmlər Akademiyası Azad Hİ-nin sədri Habil Qurbanov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK-in sədri Rəşad Səfərov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərsu" Təsərrüfatı İşçiləri HİRK-in sədri Akif Məmmədov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri HİRK-in sədri Məhəmmədəli Salmanov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK-in sədri Telman Hacıyev və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK-in sədri Telman Hacıyev və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gömrük İşçiləri Hİ Birliyinin sədri Səfər İbrahimov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gömrük İşçiləri Hİ Birliyinin sədri Səfər İbrahimov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Baku Stil Kompani" MMC işçiləri Hİ Birliyinin sədri Asif Abbasov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Baku Stil Kompani" MMC işçiləri Hİ Birliyinin sədri Asif Abbasov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri Hİ Gəncə Şəhər Komitəsinin sədri Sahib Axundov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Neftçala Rayon Komitəsinin sədri Gülqayıt Mürsəlova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Masallı Rayon Komitəsinin sədri Vəkil İsmayılov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Ağdam Rayon Komitəsinin sədri Cahangir Talıbov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Ağsu Rayon Komitəsinin sədri Telman Şükürov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Saatlı Rayon Komitəsinin sədri Sakit Bağırov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Samux Rayon Komitəsinin sədri Maviyyə Hüseynova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Sabirabad Rayon Komitəsinin sədri Telman Əzimov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Şamaxı Rayon Komitəsinin sədri Əqidə Sadıqova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Şəki Rayon Komitəsinin sədri Rəhman Məmmədov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 670
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət